# MANIFESTO 2000
in azerbaijani language

# 2000-ci il MANİFESTİ

Sülh mədəniyyəti və qeyri-zorakılıq naminə
Beynəlxalq Hərəkata qoşulun:

* Ona görə ki, müharibə və zorakılıq mədəniyyətinin sülh mədəniyyəti və qeyri-zorakılıq mədəniyyətinə çevrilməsi üçün 2000-ci il yeni başlaqğıc nöqtəsi olmalıdır.

* Ona görə ki, bizdən hər bir kəsin iştirakını tələb edən bu məsələnin həlli, gənclərə və gələcək nəsillərə onları sülhün yaradılmasına, ləyaqətin və harmoniyanın həyata keçirilməsinə, ədalətə və həmrəyliyə, azad və inkişaf etmiş dünyaya ruhlandıran dəyərlər verməlidir.

* Ona görə ki, sülh mədəniyyəti sabit inkişaf, ətraf mühitin mühafizəsi və insanın potensialının hərtərəfli həyata keçirilməsinə imkanlar yaradır.

* Ona görə ki, mən bəşəriyyətin gələcəyi və xüsusilə də, müasir və sabahkı günün uşaqlarının gələcəyi naminə öz məsuliyyətimi dərk edirəm.

Öz gündəlik həyatımda, evimdə və işimdə, cəmiyyətimdə ölkəmdə və regionumda öhdəlik qəbul edirəm:

1. "Hər insanın həyatına hörmətlə yanaşmaq"

Hər hansı bir ayrı-seçkiliyə və yanlış hərəkətə yol vermədən hər bir insanın həyatına və ləyaqətinə hörmətlə yanaşmaq.

2. "Zorakılığı rədd etmək"

Qeyri zorakılıq ideyalarını israrla həyata keçirmək, istənilən zorakılığı (fiziki, cinsi, psixoloji, iqtisadi, sosial - ilk növbədə, cəmiyyətin ən məzlum, həmçinin ən zəif vəziyyətdə olan insanlara - uşaqlara və yeniyetmələ münasibətdə) rədd etmək.

3. "Səxavətli olmaq"

Soyuqluğa, ədalətsizliyə, siyasi və iqtisadi zülmə son qoymaq üçün digər insanlarla öz vaxtınızla və maliyyə imkanlarınızla bölüşmək.

4. "Dinləmək və anlamağa çalışmaq"

Söz azadlığını və mədəni rəngarəngliyi müdafiə etmək, heç kimi rədd etmədən, fanatizmdən və qeybətdən uzaqlaşaraq daima dialoqa və qarşılıqlı anlaşmaya doğru istiqamətlənmək.

5. "Planetimizi qorumaq"

Məntiqli istehlaka və həyatın bütün formalarına hörmət edildiyi və planetdə təbii tarazlığın qorunmasının təmin edildiyi inkişaf prosesinə yardım göstərmək.

6. "Həmrəyliyi möhkəmləndirmək"

Cəmiyyətimizin inkişafına öz töhfəmizi vermək, digər insanlarla çiyin-çiyinə həmrəyliyin yeni formalarını yaratmaq üçün cəmiyyətin həyatında qadınların hərtərəfli iştirakına yardım göstərmək və demokratik prinsiplərə hörmət etmək.